*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    23 aprel 2016-cı il    № 30 (2045)    Qiyməti 25 qəpik


Ali Baş Komandan İlham ƏLİYEV:

*Qoy düşmənlər bilsin ki, Azərbaycan xalqının tarixində Mübariz kimi qəhrəmanlar olub və yenə də olacaqdır. Bu gün bizim ordumuzda Mübariz İbrahimov kimi qəhrəmanlıq göstərməyə qadir olan oğullar yüzlərlə, minlərlədir.*



# "Andımıza sadiq qalacağıq"

**Hərbi hissənin qərargahından çıxarkən zabit Elsevər Orucov bildirmişdi ki, gedəcəyimiz istiqamətdə xidmətdə fərqlənən iki qardaş - Vüsal və İlkin Abbasovlar var. Onlar həmişə postlarında ayıq-sayıq dayanır, yurdumuzu göz bəbəyi kimi qoruyurlar. Komandirlər onlardan həmişə razılıq edirlər.**

Xoş ovqatla ön xətdə - yurdumuzun keşiyində dayanan zabit və əsgərlərin yanına yollanırıq. Cəbhə bölgəsinə yaxın olan kəndlərdən keçirik. Ordumuzun gücünə, qüdrətinə arxalanan sakinlər əkin işləri görürlər. Hər tərəf yaşıl libasa bürünüb, göz gözəllikdən doymur. Ağaclar çiçəklərə bürünüb, dərə-təpələr yaşıllaşıb.

Bölüyün qərargahına çatanda artıq gün-günorta olmuşdu. Bizi leytenant Pərviz Quliyev qarşıladı, şəxsi heyətin ön xətdəki xidmətindən danışdı. Bildirdi ki, əsgərlər mövqelərində ayıq-sayıq dayanırlar. "Bu gün biz hər sahədə ermənilərdən üstünük. Həm döyüş hazırlığımız yüksəkdir, həm də silahlarımız müasirdir. Ən başlıcası isə əsgərlərimizin sinəsində Vətənə bağlı ürək döyünür."

Qısa söhbətdən sonra dərin səngərlərlə postlara baş çəkir, zabit və əsgərlərlə görüşüb söhbət edirik. Hərbçilərlə söhbətlərimiz ovqatımızı ovxarlayır. Yurdumuzu qoruyan belə cəsur oğullar torpaqlarımızın azad olunmasına inamımızı daha da artırırlar.

Növbəti postda Vüsal və İlkin qardaşlarıyla görüşürük.

- Qardaşım Vüsalla xidmətə ötən il çağırılmışıq, - deyə əsgər İlkin Abbasov sözə başladı. - Bizi ordu sıralarına yola salan valideynlərimiz tövsiyə etdilər ki, torpaqlarımızı göz bəbəyiniz kimi qoruyun. Verilən məsləhət və tapşırıqlara uyğun olaraq xidmətə gəldiyimiz ilk gündən silahların sirlərini öyrənməyə başladıq. Qısa müddət ərzində hərbi biliklərə dərindən yiyələndik. Ön xəttə gələndə artıq kifayət qədər hərbi biliyə və döyüş təcrübəsinə malik idik. Neçə vaxtdır səngərdə yurdumuza keşik çəkirik. Gündən-günə döyüş hazırlığımız artır. Bu isə bizi qələbəyə ruhlandırır. Xidmətimizin başa çatmasına xeyli vaxt qalıb. Həmişə andımıza sadiq qalacağıq.

Qardaşların hünər və cəsarətinə heyran qalıram. Bu gün torpaqlarımızı belə oğullar qoruyur.

...Oğullar böyüyür. Oğullar Vətənin oğlu olur. Vətənin keşiyini çəkənlərlə təkcə valideynləri deyil, komandirləri də fəxr edir...

İki oğul eyni səngərdədi. Ata-ana bir səngərin iki əsgərinə görə necə qürrələnir görəsən? - duyumum mənə deyir ki, komandirləri qürurlandığı qədər...

...Oğullar böyüyür, mübarizlər böyüyür, hərbi xidmətə çağırılır. Vətənin keşiyini çəkənləri hər ana öz oğlu bilir. Qətiyyətlidirlər, Vətən sevgisi onların varlığından yoğrulub... Digər əsgərlərimiz kimi bu iki əsgər qardaş da qələbə gününün həsrətindədi...

**"Azərbaycan Ordusu"**



Ordumuz bizə qürur dolu anlar yaşatdı

2-ci səhifədə



Səngərdən güc alır Vətən

3-cü səhifədə



Əsl komandir öz əsgərinin etimadını qazanmalıdır

4-cü səhifədə



"Səninlə fəxr edirik, Azərbaycan əsgəri"

6-cı səhifədə

# Müharibə veteranları Prezident İlham Əliyevə onlara göstərdiyi yüksək qayğıya görə minnətdarlıq edirlər

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 20-də imzaladığı "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" sərəncam veteranlar tərəfindən sonsuz razılıq hissi ilə qarşılanıb.*

AZƏRTAC xəbər verir ki, ehtiyatda olan general-mayor Dadaş Rzayev bununla əlaqədar Respublika Veteranlar Təşkilatının rəyasət heyəti adından dövlətimizin başçısına təşəkkür məktubu ünvanlayıb. Məktubda veteranlara yüksək diqqət və qayğının əsasının hələ Sovet dövründə ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğu bildirilib. Müstəqilliyimizin bərpasından sonra xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli liderin humanist siyasətinə sadiq qalaraq imzaladığı ilk sənədlərdən biri olan "Veteranlar haqqında" Qanunda bu qayğının hüquqi bazasının yaradıldığı və bu istiqamətdə dövlət siyasətinin əsasının qoyulduğu qeyd edilib.

Ulu öndərin veteranlara göstərdiyi diqqət və qayğının bu gün dövlətimizin başçısı tərəfindən ardıcıllıqla yerinə yetirildiyi razılıq hissi ilə vurğulanıb: "Biz bunu Sizin 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına 1000 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə 500 manat məbləğində birdəfəlik maddi yardım verilməsi barəsində imzaladığınız sərəncamda da görürük."

Məktubda Azərbaycan Prezidentinin imzaladığı bu sərəncamın Böyük Vətən müharibəsi iştirakçıları, ümumilikdə bütün veteranlar tərəfindən böyük razılıq və minnətdarlıq hissi ilə qarşılandığı diqqətə çatdırılıb.

"Müharibə veteranlarına göstərdiyiniz qayğı və diqqətə görə Sizə dərin minnətdarlığımızı bildirir, Azərbaycanın müstəqilliyi və gələcək rifahı naminə yorulmaz fəaliyyətinizdə yeni uğurlar arzulayırıq. Veteranlar həmişə Sizinlədir", - deyə məktubda qeyd olunub.

# Ordumuz bizə qürur dolu anlar yaşatdı



Düşmən təxribatının qarşısını alan və ona sarsıdıcı zərbə vuran Azərbaycan Ordusunun əsgər və zabitlərinin qəhrəmanlığı bu gün ölkəmizin hər yerində dillər əzbəridir. Hər kəs şəhidlik və qazilik məqamına yüksələn oğullarımızın döyüş meydanında düşmənə qarşı göstərdiyi rəşadətdən, igidlikdən danışır. Azərbaycan Ordusunun gücündən doğan mübarizlik əzmi cəmiyyətimizdə yüksək əhval-ruhiyyə yaratdı, hər kəsi işğal edilən ərazilərimizin azadlığı üçün müqəddəs müharibəyə səslədi. Aprelin ilk günlərində ermənilərin törətdiyi təxribatlar ucbatından döyüş mövqelərimizlə yanaşı, dinc vətəndaşlarımızın yaşadığı kənd və qəsəbələrimiz atəşə tutulur, nəticədə günahsız insanlar həlak olur, evlər dağılır, təsərrüfatlara xeyli ziyan vurulurdu. Azərbaycan Ordusunun əks-zərbələri nəticəsində bir sıra yüksəkliklər ələ keçirildi. Ağır itkilər verən Ermənistanın vəziyyətlə barışmaqdan başqa çarəsi qalmadı.

Aprel döyüşlərinin çox böyük önəmi oldu. Azərbaycan Ermənistana və bütün dünyaya bir daha göstərdi ki, əzəli torpaqlarının işğalı ilə barışmayacaq. Ölkəmiz sülh danışıqlarına sadiqdir, amma problem öz həllini yalnız beynəlxalq hüquq çərçivəsində və Azərbaycanın ərazi bütövlüyü qorunmaqla tapmalıdır.

Əlbəttə, cəbhə xəttində ordumuzun qazandığı uğurun əsas səbəbi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı ilə həyata keçirilən ordu quruculuğudur. Dövlət rəhbərliyi Silahlı Qüvvələrimizin möhkəmləndirilməsini ölkəmiz üçün prioritet vəzifə elan edib. Azərbaycan Ordusu son illər ən müasir silah və texnika ilə təchiz edilir, müxtəlif qoşun növlərinə məxsus hərbi hissələrdə döyüş hazırlığı tədbirləri həyata keçirilir, bölmələrimiz məşğələ və təlimlərdə döyüş bacarıqlarını yüksəldir.

Son döyüşlər göstərdi ki, Silahlı Qüvvələrimiz xalqımızın və ölkə rəhbərliyinin etimadını yüksək səviyyədə doğrultmağa qadirdir. Ali Baş Komandanın tapşırığı ilə qısa müddətdə orduda aparılan islahatlar, quruculuq işləri, keçirilən çoxsaylı təlimlər müsbət bəhrəsini verib. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin son iclasında hərbi əməliyyatlarda iştirak etmiş şəxsi heyətin fəaliyyətindən razı qaldığını bildirib və Silahlı Qüvvələrimizin uğurunu yüksək qiymətləndirib.

Bir daha əmin olduq ki, Silahlı Qüvvələrimiz güclüdür, Cənubi Qafqazın ən güclü ordusudur, qarşıya qoyulan istənilən döyüş tapşırıqlarını yerinə yetirməyə hazırdır.

Ən vacib və qürurverici məqamlardan biri də odur ki, son döyüş əməliyyatlarında ordu və xalq möhkəm birlik nümayiş etdirdi. Hətta dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar da Müdafiə Nazirliyinə müraciət edərək, dəstəklərini ifadə ediblər və Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün ordumuzun sıralarında düşmənə qarşı vuruşmağa hazır olduqlarını bildiriblər.

Düşmən canlı qüvvə və texnika sarıdan xeyli sayda itkilər verib. Ermənistan silahlı qüvvələrinin işğalda olan ərazilərimizdəki hərbi infrastrukturu dağıdılıb və xeyli ərazi nəzarətimizə götürülüb. Ətraf yaşayış məntəqələrindəki əhalimizin təhlükəsizliyi təmin olunub.

Döyüşlərdə tərxis olunmaq vaxtı çatmış əsgərlər də torpaqlarımız uğrunda döyüşə atılıblar. Yaralananlar belə silahdaşlarını tərk etməyiblər. Komandir heyətinin peşəkarlığı isə əsgərlərimizə nümunədir.

Döyüşlərdə şücaət göstərən, şəhid olan hərbçilərimizin valideynləri doğma övladlarını itirsələr də, əsl vətəndaş mövqeyi ortaya qoydular, "Vətən sağ olsun", dedilər.

Hadisələr ordumuzun və xalqımızın mətinliyini, cəsurluğunu bir daha sübut edərək, gənclərimizin hərbi vətənpərvərlik hisslərinin inkişafına güclü təkan verdi.

Aprel döyüşlərində Azərbaycan rəhbərliyinin, Müdafiə Nazirliyinin və xalqımızın göstərdiyi qətiyyətə, ordumuzun döyüş meydanında nümayiş etdirdiyi şücaətə görə şəhidlərin ruhu qarşısında baş əyirik.

Azərbaycan Silahlı Qüvvələrilə fəxr edirik.

**Ramil MƏMMƏDLİ**

## Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı ələ keçirilib

***20 aprel 2016-cı il.***

Cəbhə bölgəsində Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan ordusuna məxsus kvadrokopter tipli "Dji Phantom" pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən xüsusi üsulla endirilərək ələ keçirilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***21 aprel 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 120 dəfə pozub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Kəmərli kəndində, Berd rayonunun Çinari, Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Mərzili, Şuraabad, Qaraqaşlı, Yusifcanlı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqelərinə və səngərlərinə 126 dəfə atəş zərbəsi endirib.

***22 aprel 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 143 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Ağstafa rayonunun Köhnəqışlaq kəndlərində, Berd rayonunun Mosesqex, Çinari, Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli, Koxanəbi kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Yarımca, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Sarıcalı, Kəngərli, Mərzili, Qaraqaşlı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqelərinə və səngərlərinə 146 dəfə atəş zərbəsi endirib.

# Hərbi Akademiyada xarici dil kurslarının buraxılışı keçirilib



Tədris planına əsasən, aprelin 22-də Silahlı Qüvvələrin Hərbi Akademiyasının Xarici Dil və Tərəfdaşlıq Mərkəzində komandanlığın iştirakı ilə intensiv xarici dil kurslarının buraxılış mərasimi keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Sonra Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyev zabit, gizir və çavuş heyətinin iştirakı ilə keçirilən intensiv ingilis dili kurslarının əhəmiyyətindən və mahiyyətindən danışıb. O, təməl, orta və təkmilləşdirmə qruplarından ibarət təşkil edilən kursları bitirən dinləyicilərə gələcək xidmətlərində uğurlar arzulayıb və məzunlara sertifikatlar təqdim edib.



Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# Səngərdən güc alır Vətən

***Gecə doyunca yağış yağmışdı. Səhərin alatoranında göy üzünü örtmüş qara buludlar yavaş-yavaş zirvələrə sarı çəkilirdi. Dağların arxasından boylanan günəşin şüaları dərə-təpəli çöllərə ruh verirdi. Yazın ilk günləri olduğundan otlar sanki göz görə-görə göyərirdi. Düşmənlə təmas xəttində yerləşən mövqelərə doğru gedirik. Yol yoldaşım zabit Vaqif Bayramov neçə illərdi bu yerlərdə xidmət etdiyindən ön mövqelərə yaxşı bələddir.***

- Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissəmizə ilk dəfə gələndə döyüş mövqeləri ilə yaxından tanış oldu, - deyir zabit. - Bu zaman səngərləri gücləndirmək və ehtiyat bölmələrinin vaxtında ön xəttə çıxmasını təmin etmək üçün yeni yollar salındı. Bu yollar həm təhlükəsizliyimizi təmin edir, həm də gediş-gəlişi asanlaşdırır. Bu da cəbhə bölgəsində xidmətin yüksək səviyyədə təşkilinə şərait yaradır.

Hər yan açıqlıqdır. Bir qədər irəlidə düşmən mövqeləri görünür. Baş leytenant Hilal Tarverdiyevin komandiri olduğu bölmənin dayaq məntəqəsi etibarlı şəkildə qurulub. İlk qarşıma çıxan ortaboylu hərbçi İsmət Məmmədovla görüşürəm. İsmət üç ildən artıqdır ki, manqa komandiri vəzifəsində xidmət edir. O, Cəlilabad rayonundandır. Baş leytenant H.Tarverdiyevin dediyinə görə, bölmədə ən bacarıqlı komandirlərdən biridir. "Onun komandiri olduğu manqa həmişə nümunəvi xidmətləri ilə fərqlənib. Bu da söz yox ki, kiçik komandirin yüksək tələbkarlığından və öz işini yaxşı təşkil etməsindən irəli gəlir."

Əsgərlərin istirahət etdikləri blindaj da yeni tikilib. Burada onların döyüş növbəsindən sonra dincəlmələri üçün hər cür şərait var. Vətənin mərd, cəsur döyüşçüləri düşmənlə üz-üzə xidmət etməkdən qürur duyduqlarını deyirlər. Əsgər Kərəm Məmmədov bir ildir xidmətdədir. Atası Etibar birinci Qarabağ döyüşlərində iştirak edib. Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdən birində yaralanıb. Atası müharibə əlili olan əsgər torpaqlarımızı azad etmək üçün döyüşlərə hər an hazır olduğunu bildirdi.



Qarabağ müharibəsinin ağrı-acısını bilavasitə çəkənlərdən biri də əsgər Niyaməddin Məhərrəmovdur. Niyaməddin əslən Cəbrayıl rayonundandır. Onun valideynləri doğma yurd-yuvaları ermənilər tərəfindən işğal ediləndən sonra Biləsuvar rayonuna köç edib. Hazırda bu rayonda cəbrayıllı didərgin soydaşlarımıza məxsus qəsəbədə məskunlaşıblar. Niyaməddin doğma Cəbrayılı görməsə də, ata-baba yurdunun həsrətində olduğunu deyir. "Ən böyük arzum kəndimizdə yaşamaqdır", - deyir.

Söhbətimizin bu yerində ucaboylu bir döyüşçü də fikirlərini bölüşür. "Hərbi xidmətə gəldiyim gündən hərbi bilik və bacarıqları yüksək səviyyədə öyrənməyə səy göstərdim. Cəbhə bölgəsində, düşmənlə təmas xəttində xidmət etməkdən qürur duyuram."

Ordu sıralarına Sumqayıt şəhərindən çağırılan Elmar İlyasov silahdaşlarının da yüksək döyüş təcrübəsinə malik olduqlarını dedi:

- Hər bir əsgərimiz düşməni məhv etməyə qadir cəngavərdir. Dəfələrlə ermənilər mövqelərimizə soxulmağa cəhd edəndə onları sərrast atəşimizlə geri çəkilməyə məcbur edirik.

Qubalı Hüseyn Məmmədov, saatlılı Elməddin Məmmədov və başqaları da söhbətimizdə qeyd etdilər ki, silah və texnikaların sirlərini mükəmməl öyrəniblər.

Düşmənlə lap yaxın məsafədə cəsurluqla xidmət edən bu oğulların hər birinin Vətənin qəhrəman övladı olduğunu zənn etdim. Onlar torpaqlarımızın keşiyində həmişə sayıq dayandıqlarını və heç zaman düşmənə mövqelərimizə hücum etməyə imkan verməyəcəklərini bildirdilər. Artıq düşmən də hiss edir ki, Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilməz. Tezliklə erməni işğalı altında olan torpaqlarımızın azad ediləcəyi gündə görüşmək ümidi ilə onlardan ayrılıram.

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edib

*Silahlı Qüvvələrimizin keçirdiyi son uğurlu əkshəmlə əməliyyatlarından ruhlanan xalqımız ordumuza müxtəlif sahələrdə hərtərəfli kömək etmək niyyəti ilə dəstəyini əsirgəmir.*

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər: "Azərbaycan əsgərinin uğurlarından qürur duyan vətəndaşlarımızın atdığı bu addımlar könüllülük prinsipi əsasında həyata keçirilib. Bir daha xatırladırıq ki, hər hansı yardımın göstərilməsi ilə bağlı nazirlik rəsmi surətdə hər hansı çağırışla çıxış etməyib. Şəxsi təşəbbüslərlə həyata keçirilən istənilən dəstəyə görə Müdafiə Nazirliyi adından hər kəsə dərin təşəkkürümüzü bildiririk.

Eyni zamanda qeyd edirik ki, Silahlı Qüvvələrimiz dövlətimizin, şəxsən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə tam əhatə olunub, təminat və təchizat məsələləri yüksək səviyyədə, keyfiyyətlə davamlı surətdə həyata keçirilir".

Nazirliyin açıqlamasında bütün sosial şəbəkə istifadəçilərinə müraciətlə deyilir: "İşğaldan azad olunmuş torpaqlara səfər edən dövlət, qeyri-hökumət təşkilatları, ictimaiyyət, media nümayəndələri, o cümlədən mədəniyyət və incəsənət xadimləri olduqları ərazilərdə apardıqları foto və videoçəkilişlərini, təəssüflər olsun ki, internet informasiya resursları vasitələri ilə yayırlar.

Bu foto və videoların yayılmasının müdafiə maraqlarımıza zidd olmasını, hazırda ön xətdə yerləşən hərbi qulluqçularımızın təhlükəsizliyinə təhdid yaradacağını, eləcə də düşmən kəşfiyyatı üçün maraqlı olduğunu nəzərə alaraq, sosial şəbəkələrdə şəxsi profillərdə mövcud olan görüntülərin təcili surətdə silinməsi xahiş olunur, gələcəkdə yerləşdirilməməsi təkidlə tövsiyə edilir. Hamını bu tədbirdə yaxından iştiraka çağırırıq".

# AŞ PA monitorinq komitəsində Dağlıq Qarabağla bağlı müzakirələr aparılıb

Aprelin 21-də Avropa Şurası Parlament Assambleyasının yaz sessiyası çərçivəsində qurumun monitorinq komitəsinin Avropa Şurasına üzv ölkələr arasındakı münaqişələrə dair xüsusi alt komitəsinin ilk toplantısı keçirilib.

İclasda Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttindəki son hadisələr müzakirə olunub.

İclasda iştirak etmiş Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib ki, erməni tərəfi AŞPA sessiyalarında yalan və böhtan xarakterli çıxışlar etməsinə baxmayaraq, komitə iclaslarında konkret faktlar haqqında müzakirələrdən yayınır və onların əhəmiyyətsiz olduğunu bildirirlər.

S.Seyidov müzakirələr zamanı erməni tərəfin həmişə olduğu kimi, yenə də konstruktiv mövqedən uzaq təkliflər irəli sürdüyünü qeyd edib. Bildirib ki, ermənilər konkret faktlar üzrə müzakirələrdən qaçırlar, Assambleyanın plenar iclaslarında isə yalan danışmaq siyasəti aparırlar. Ermənilər konkret müzakirələrin, faktların əhəmiyyətsiz olduğunu söyləyərək müzakirələrin bağlanmasına çalışırlar. Bu da onların qeyri-konstruktiv mövqelərini bir daha göstərir.

**AZƏRTAC**

AZƏRBAYCAN ORDUSU

# Cəbhə bölgəsində hərbi-tibbi təlim toplantısı keçirilib

***"N" hərbi hissəsinin tərkibində fəaliyyət göstərən mobil səhra hospitalında Silahlı Qüvvələrin tibb xidməti zabitlərinin və Səhiyyə Nazirliyi nümayəndələrinin hərbi-tibbi təlim toplantısı keçirilib.***



Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Dövlət himnimiz səsləndirilib.

Toplantıda Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev çıxış edərək bildirib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimiz daha da möhkəmlənib və regionun ən güclü ordusuna çevrilib. Bu uğurlar hərbi səhiyyəmizi də geniş əhatə edir. Müasir tələblərə cavab verən, yeni avadanlıqla təchiz olunan hospitallar, poliklinikalar, tibb məntəqələri tikilərək istifadəyə verilib.

Müharibə şəraitində ixtisaslaşdırılmış cərrahi yardımın göstərilməsi üçün nəzərdə tutulan mobil səhra hospitalları, diaqnostik stomatoloji, laborator kabinələr, yaralıların təxliyəsi üçün müasir reanimobillər və ambulanslar alınıb.

"Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, bu işlər daha uğurla davam etdirilir. Maddi-texniki baza təkmilləşdirilir, hərbi-tibbi hissə və müəssisələr müasir tibbi avadanlıqlarla təmin edilir. Beynəlxalq əlaqələrimiz də genişləndirilir. Həkimlərimiz Türkiyədə, Almaniyada, ABŞ-da və digər ölkələrdə müxtəlif tədbirlərdə iştirak edirlər", - deyə general-mayor Natiq Əliyev əlavə edib.



Bildirilib ki, Silahlı Qüvvələrimizin Tibb Baş İdarəsinin Respublika Səhiyyə Nazirliyinin nəzdində olan səhiyyə müəssisələri ilə sıx əməkdaşlığı nəticəsində düşmənin son günlər ölkəmizə qarşı törətdiyi təxribat nəticəsində yaralanan hərbi qulluqçularımıza yüksək tibbi xidmətin göstərilməsində nazirliyin mütəxəssislərinin xidmətləri də əvəzsizdir. Göstərilən yardıma görə Səhiyyə Nazirliyinin rəhbərliyinə, eləcə də bütün həkim kollektivlərinə minnətdarlıq ifadə edilib.

Sonra tibb xidməti polkovniki Famil Babayev, tibb xidməti polkovnik-leytenantı Vüsal Rəcəbli, tibb xidməti kapitanı Xalidə Abbasova müasir tibb eləminin nailiyyətləri, inkişaf etmiş ölkələrin təcrübələrindən bəhrələnərək onların tətbiqi, hərbi qulluqçuların sağlamlığının qorunmasının vacibliyi və digər mövzularda məruzələrlə çıxış ediblər.

Toplantıda Gəncə, Mingəçevir, Naftalan şəhərlərinin, eləcə də Bərdə, Tərtər, Yevlax rayonlarının səhiyyə ocaqlarının nümayəndələri iştirak ediblər.

Sonda toplantı iştirakçıları mobil səhra hospitalında yaradılan müasir tibbi şəraitlə tanış olublar.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Əsl komandir öz əsgərinin etimadını qazanmalıdır



Çoxdanın söhbətidir, Böyük Vətən müharibəsindən bəhs edən bir filmə baxırdım. Bu filmin baş qəhrəmanı komandir idi, tabeliyində 30-40 döyüşçüsü olan bir mayor. Səhv etmirəmsə, milliyyətcə rus idi. Bir dəfə onlar hücum əmri alaraq düşmən üzərinə atılırlar. Bu vaxt əsgərlərdən biri faşistin komandiri dəqiq nişan aldığını görür və ani sürətlə sinəsini düşmən gülləsinə sipər edir. Cəsur, vətənpərvər döyüşçü sevimli komandirinin həyatını xilas etsə də, özü həlak olur. Komandirin öz əsgərinin meyitini qucağına alıb hönkür-hönkür ağlaması məni də kövrəltmişdi.

Birinci Qarabağ müharibəsindən üzü bəri cəbhə bölgələrinə ezamiyyətlərimdə hər dəfə əsgərlərin komandirləri barədə söhbətlərini dinlədikcə, həmin komandiri və onun həyatını qorumaq üçün canını əsirgəməyən əsgəri düşünürəm. Bizim dövrümüzdə də, əlbəttə, belə komandirlər və əsgərlərimiz az olmayıb. Yaxından tanıdığım komandir haqqında bir dəfə başqalarından eşitdim ki, ona dövlət rəhbərliyi tərəfindən verilən mənzilini şəhid əsgərinin ailəsinə bağışlayıb. Sözün düzü, növbəti görüşümüzdə komandirdən bu barədə soruşanda "üstünü vurma" dedi. Çox israrla bu mövzuda bir yazı hazırlamaq istədiyimi bildirəndə isə qəti razılıq vermədi və "bir insanlıq haqqını ödəmişəm, burada qeyri-adi nə var ki" dedi. Amma bircə onu öyrəndim ki, şəhid olan həmin əsgər bir dəfə komandiri ölümün pəncəsindən qurtarıb. Budur, mənəviyyat!

Ümummilli liderimiz Heydər Əliyev zamanında Azərbaycan gənclərinin düzgün təşkilatlanması naminə böyük islahatlar həyata keçirmişdi. 1996-cı ildə gənclərimizin ilk ümumrespublika toplantısında onun çıxışı indiki kimi yadımdadır. Həmin tədbirdə ordu gəncləri, zabit və əsgərlər də vardı. Ulu öndər üzünü salonda əyləşən gənc zabitlərə tutub demişdi: "Bugünümüzün komandirləri, zabitləri unutmasınlar ki, müharibə hələ bitməyib. Siz bu gün tabeliyinizdə olan əsgərlə sabah bir cəbhədə vuruşmalı olacaqsınız, bunun isə nə demək olduğunu yaxşı-yaxşı dərk etməlisiniz". Bu sözlərdə çox dərin məna vardır. Doğrudan da, hər bir komandir tabeliyindəki şəxsi heyətin inamını qazanmağı bacarmalıdır. Öz əsgərinə güvənməyən zabit döyüşə ürəklə qatıla bilməz. Gənc zabitlərimizlə həmsöhbət olanda həmişə onlara böyük öndərin tövsiyələrini xatırlatmağı özümə borc bilmişəm.

Baş leytenant Mirizzət Cavadov Lənkəran rayonundandır, 26 yaşı var. 2004-cü ildə zabit olmaq istəyi onu C.Naxçıvanski adına Hərbi Liseyə gətirib. Yeniyetmə vaxtında hərbi peşəyə həvəsi təsadüfdən yaranmayıb. Vətəninə gərəkli olan bir peşə seçmək onun əsas məqsədi olub.

Gənc zabitlə cəbhə xəttində söhbətləşirik. 2013-cü ildən düşmənlə təmas xəttində taqım komandiri vəzifəsində xidmət etdiyini bildirən baş leytenanta görə, cəbhə bölgəsi onun bir hərbçi kimi formalaşmasına zəmin yaradıb. "Adətən, bəziləri elə düşünür ki, cəbhə xəttində xidmət etmək çətindir. Əslində, qarşılaşdığın çətinliklər səbəbindən tez bir zamanda bacarıqlı kadr kimi yetişmək imkanı qazanırsan. Bizdən əvvəlki məzunlar da Silahlı Qüvvələrimizin cəbhə bölgələrindəki hərbi bölmələrində xidmətə başlayıblar və onların karyerası gözlədiklərindən də uğurlu alınıb. İndi biz onların yolunu davam etdiririk."

Baş leytenantın fikirləri ilə tam şərikəm. Doğrudan da, cəbhə bölgəsinin özəl xüsusiyyətləri, yəni təbii şəraitin və xidmətin çətinlikləri vacib mənəvi keyfiyyətlərin formalaşmasına şərait yaradır. Düşmənlə üz-üzə mövqelərdə xidmət etmək hərbçilərimizə məğrurluq, qəhrəmanlıq keyfiyyətləri aşılayır. Sevindirici haldır ki, hər il ali hərbi təhsil müəssisələrini bitirən gənclərimiz xidmətə, əsasən, ön xətdəki bölmələrdə başlamağı üstün tuturlar.

Mənə elə gəlir ki, həyatda hansı sənəti seçməyindən asılı olmayaraq özünə ideal tapmalısan. Gənc zabitlərimiz də Silahlı Qüvvələrimizdə və cəmiyyətimizdə hörməti olan məşhur hərb xadimlərini, generalları özlərinə ideal seçirlər. Məqsəd aydındır: sənin həyatdakı seçimin təsadüfi deyil və uğurlu tale yiyəsi olmaq üçün bütün səylərinlə mübarizə aparırsan. Müsahibim deyir ki, özünə ideal seçdiyi zabitlərin əksəriyyəti bu gün Azərbaycan cəmiyyətində yetərincə ad-san qazanıb. "Hər biri ilə qürurlanıram və özümə söz vermişəm ki, Vətənimə sədaqətli xidmətimlə onların ardıcıllarından biri olum."

Gənc zabitlə səngərlərdə bir-birindən mətin döyüşçülərimizlə, ürəkləri Vətən sevgisi ilə döyünən gənclərimizlə tanış oluram. Hər biri ilə söhbətlərimizdə komandirlərini onlara sevdirən xüsusiyyətləri öyrənməyə çalışıram. Gecəli-gündüzlü, qışın şaxtasında, yayın bürküsündə Vətənimizi qoruyan bu oğullarımızın hamısı gənc komandirlərindən ağızdolusu razılıq edir. Bir andaca düşünürəm ki, komandirə bu sevgini qazandıran əsas amil onun öz tabeliyindəkilərə inamı və etimadıdır. Müdafiə nazirimizin bir dəfə gənc zabitlərlə görüşündə dediyi bir fikri xatırlamaq istərdim. "Siz yaxşı bilin ki, tabeliyinizdə olan əsgərlərin inam və etimadını qazanmaqla bütün uğurların qapısı üzünüzə geniş açılacaqdır".

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# “Mənim oğlum idi, indi Azərbaycan xalqının oğludur”

## Şəhid zabitin medalı ailəsinə təqdim olunub

***Aprelin 20-də Tovuz rayon İcra Hakimiyyətində ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş Rahib Nəriman oğlu Quliyevin Azərbaycan Respublikası Prezidenti adından Müdafiə Nazirliyinin əmri ilə layiq görüldüyü "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhidin ailə üzvlərinə təqdim edilib.***



AZƏRTAC xəbər verir ki, mərasimdə rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov, Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Abdulla Qurbani və başqaları çıxış edərək işğalçı Ermənistan ordusu tərəfindən atəşkəsin daim pozulduğunu, Azərbaycan Ordusunun mövqelərinin və sərhədyanı kəndlərin atəşə məruz qaldığını qeyd ediblər.

Bildirilib ki, fevralın 10-da təmas xəttində ermənilərin növbəti dəfə atəşkəsi pozması nəticəsində ordumuzun baş leytenantı, əslən tovuzlu olan Rahib Quliyev həyatını itirib.

Diqqətə çatdırılıb ki, Rahib Quliyev 1990-cı il iyunun 13-də Tovuz rayonunun Bozalqanlı kəndində doğulub. 2005-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Təhsilini başa vurduqdan sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olunub və 2013-cü ildə zabit kimi hərbi xidmətə başlayıb.

Beyləqan rayonu ərazisindəki "N" hərbi hissəsində taqım komandiri olan baş leytenant Rahib Quliyev 2016-cı il fevralın 10-da təmas xəttində xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Tədbirdə Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində qüdrətli ordumuzun torpaqlarımızı işğaldan azad edəcəyinə, Azərbaycanın dövlət bayrağının Xankəndidə, Şuşada dalğalanacağına əminlik ifadə edilib.

Şəhid zabitimizin medalı onun ailə üzvlərinə təqdim olunub. Şəhidin anası oğlu ilə qürur duyduğunu bildirərək deyib: "Rahib indiyə qədər mənim oğlum idi, indi bütün Azərbaycan xalqının oğludur".

***Tale o adamların üzünə gülür ki, çətinlikləri mətanətlə dəf etməyi, həyatı düzgün dəyərləndirməyi və qarşıya çıxan imkanlardan lazımınca yararlanmağı bacarırlar. Leytenant Fərid Sədiyevlə tanış olduqdan sonra bir daha bu qənaətə gəldim.***

### Nümunəvi xidmət

# “Vətənə xidmət əsl kişi sənətidir”



Fərid Sədiyev kadr zabiti olmasa da, qısa zamanda öz ixtisasını mükəmməl öyrənib və hazırda onun komandiri olduğu özüyeriyən zenit taqımı hərbi hissədə ən nümunəvi bölmələrdən sayılır. Qərargahda ən yaxşı bölmə haqqında yazı yazmaq istədiyimi bildirdikdə leytenant Sədiyevin taqımını məsləhət gördülər. O, taqımın şəxsi heyətilə açıq səma altında döyüş hazırlığı məşğələsini aparırdı.

Azərbaycan Dövlət Neft Akademiyası kimi nüfuzlu ali təhsil ocağının auditoriyalarında elektrik mühəndisi ixtisası üzrə biliklərə yiyələnən Fərid ağlına da gətirməzdi ki, enerji sahəsinə yox, hərbçi peşəsinə üstünlük verəcək.

- Ali təhsilimi başa vurduqdan sonra - 2014-cü ilin iyulunda hərbi xidmətə çağırış vərəqi aldım, - leytenant Sədiyev deyir. - Əvvəldən, doğrusu, hərbi xidmətə, zabit peşəsinə rəğbətim, həvəsim vardı. Ona görə zabit kimi xidmət etmək istəyimi valideynlərimlə bölüşdüm. Atamın xeyir-duası mənim üçün əsas tövsiyə oldu.

Yardımlı rayonundan hərbi xidmətə çağırılan Fərid Vətənə sədaqət andı içdikdən sonra imtahan verib zabit kursuna göndərilir. Təlim və Tədris Mərkəzində zenit-raket ixtisasına yiyələnir. Kursu uğurla başa vuran F.Sədiyev 2014-cü ilin noyabrında təntənəli şəraitdə leytenant paqonlarının verildiyi günü həyatının ən əlamətdar məqamlarından hesab edir.

Gənc zabit zenitçi kimi hazırkı hərbi hissəyə xidmətini davam etdirməyə göndərildi. Zabit kimi xidmətinin ilk günlərində keçirdiyi həyəcanı da, yəqin ki, uzun müddət unutmayacaq. Amma işinə məsuliyyətlə yanaşması, daxili intizamı qısa vaxt ərzində yeni kollektivə alışmasına imkan verib.

- Burada xidmət zamanı mən hərbi hissənin savadlı, bacarıqlı zabitlərindən, bölük komandirimdən, xüsusilə mayor Qamət Mahmudovdan çox şey öyrəndim və öyrənməkdə davam edirəm, - deyir gənc zabit. - Bütün bunlar taqım komandiri kimi indiyədək gərəyim olub. İlyarımdır ki, bu vəzifədəyəm. Bizim sərəncamımızda olan zenit qurğusu haqqında ətraflı bilik və təcrübəyə malikəm. Eyni zamanda bir zabit kimi daim öz dünyagörüşümü artırmağa çalışıram.

- Şəxsi heyətlə işləmək gənc zabit üçün çətin olmadı ki?

Zabitin cavabı yetərincə maraqlı oldu:

- Xeyr, çətin olmadı. Ona görə ki, bir işə həvəs varsa, onun sirlərini lazımınca öyrənirsənsə və işinə ciddi yanaşırsansa, çətinlik dəf edilləndi. Bir də, axı, orduda hər şey intizama bağlıdır, hamı hərbi intizama tabe olmalıdır.

Taqımın uğurlarında, leytenant F.Sədiyevin fikrincə, bütün şəxsi heyətin əməyini qeyd etmək doğru olar. Sonuncu məşğələ də göstərdi ki, hər kəs öz vəzifəsinin öhdəsindən gəlməyi bacarır. Hava hücumundan müdafiəçilər özüyeriyən zenit qurğusunun istismarını və atış qaydalarını yaxşı mənimsəyiblər. Əgər yuxarı komandanlıq tərəfindən döyüş tapşırığı verilərsə, zenitçilər yerinə yetirməyə qadirdirlər.

Zabit zenitçi ixtisasına mükəmməl yiyələnmiş heyət üzvlərindən özüyeriyən zenit qurğusunun komandiri gizir Anar Paşayevin, axtarış operatoru, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Arif Qarayevin, məsafə operatoru Cavanşir Şərifovun, sürücü-mexanik Ramil Orucovun adlarını məmnuniyyətlə çəkdi.

Zabitdən məni maraqlandıran bir məsələni də soruşmağı özümə borc bildim.

- Leytenant Sədiyev xidmətini davam etdirmək istəyirmi?

- Əlbəttə, - leytenant gülümsünür. - Özümü zabit kimi çox rahat hiss edirəm. Vətənimə xidmət etməyi özümə şərəf bilirəm. Hərbi xidmətin, təbii ki, öz çətinlikləri, xüsusiyyətləri var. Nə üçün xidmət etdiyini bilirsənsə, xidmətindən zövq alırsansa, hər şey arxa plana keçir. Bu gün Silahlı Qüvvələrimizdə qulluq etmək və xidmət pillələrində irəliləmək üçün lazımi şərait yaradılıb. Digər tərəfdən Vətənimizə bir övlad kimi gərəkli olmaq, onun müdafiəsində dayanmaq əsl kişi sənətidir. Bütün bunlar peşə seçimimdə əsas rol oynadı.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

### Müsabiqə

# Ən yaxşı radiotelefonçu



***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tövsiyə və göstərişlərinə uyğun olaraq, Silahlı Qüvvələrimizin hərbi hissə və bölmələrində şəxsi heyətin döyüş ruhunun yüksəldilməsi daim komandirlərin diqqətində olan ən vacib məsələdir. Bu məqsədlə məşğələ və təlimlərlə bərabər digər zəruri tədbirlər də həyata keçirilir. Müxtəlif döyüş peşələri üzrə yarışların təşkilinə bütün qoşun növlərində olduğu kimi, hava hücumundan müdafiə təyinatlı hərbi hissələrdə də böyük əhəmiyyət verilir.***

Bu günlərdə "N" hərbi hissəsində Hərbi Hava Qüvvələrinin komandanlığı tərəfindən təsdiq edilmiş plana əsasən, "Ən yaxşı radiotelefonçu" adı uğrunda müsabiqə keçirilib. Yüksək səviyyədə təşkil edilən yarışda bu ixtisas üzrə xidmət edən hərbi qulluqçular bilik və vərdişlərini nümayiş etdiriblər. Komanda məntəqəsində xidmət edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Akifə Məmmədova birinci yerə layiq görülüb.

Hərbi hissədən redaksiyamıza verilən məlumata görə, 2014-cü ildən rabitə və idarəetmə taqımında xidmətdə olan A.Məmmədova qısa vaxtda özünü həm intizamlı, həm də döyüş tapşırığını layiqincə yerinə yetirən hərbi qulluqçu kimi tanıdıb. Mayor Natiq Rəhimov bildirib ki, belə yarış və müsabiqələrin hərbi hissədə müntəzəm keçirilməsi şəxsi heyətin döyüş vərdişlərinin möhkəmlənməsinə, həmçinin kollektivdə sağlam əhval-ruhiyyənin və qələbəyə inam hissinin formalaşmasına zəmin yaradır. "Komandanlığın əsas tələbi ondan ibarətdir ki, hər kəs üzərinə düşən döyüş tapşırıqlarının yerinə yetirilməsində şəxsi nümunə olmağı bacarmalıdır", - deyə mayor bundan sonra da hərbi hissədə belə tədbirlərin ardıcıl davam etdiriləcəyini qeyd edib.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# “Səninlə fəxr edirik, Azərbaycan əsgəri”



***Horadiz şəhərindəki Bayraq meydanında Müdafiə Nazirliyinin və Füzuli Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri" adlı hərbi vətənpərvərlik tədbiri keçirilib.***

AZƏRTAC xəbər verir ki, tədbirdə hərbi qulluqçular, Qarabağ müharibəsi veteranları, şəhid ailələri, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər. Müdafiə Nazirliyinin zabiti, polkovnik Abdulla Qurbani aprelin əvvəllərində erməni işğalçılarının cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, düşmənə ağır zərbə vurmasından, strateji əhəmiyyətə malik bir neçə yüksəkliyin azad edilməsindən, hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən danışıb.

Tədbirdə çıxış edən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirib ki, cəbhədə baş verən son döyüşlərdə ordumuz öz gücünü, qüdrətini bir daha göstərdi. Azərbaycan əsgəri qələbə çalmaq əzmini nümayiş etdirdi.

Çıxışlarda qeyd edilib ki, Azərbaycan müharibə istəmir. Lakin Azərbaycan xalqı öz torpaqlarını da heç zaman güzəştə getməyəcək. Bu gün işğal altındakı torpaqlarımızı azad etməyə qadir güclü ordumuz var. Azərbaycan Ordusu düşmənin bütün təxribatlarının qarşısını qətiyyətlə alır, Vətənin keşiyində əzmlə dayanır.

Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solisti, xalq artisti Samir Cəfərovun ifasında hərbi vətənpərvərlik mövzusunda mahnılar və rəqslər tədbir iştirakçılarında yüksək əhval-ruhiyyə yaradıb.



Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə yüksək fəxri ada layiq görülən, orden və medallarla təltif olunan hərbçilər tədbirə toplaşan rayon sakinləri tərəfindən hərarətlə qarşılanıb. Hərbçilərə alqış sədaları altında fəxri fərman və nişanlar təqdim edilib.

Hərbi vətənpərvərlik tədbiri iştirakçılarda nikbin duyğular yaradıb, qələbəyə inam hissini daha da artırıb.

# “Sən Vətənin sipəri, xalqımın qürurusan”

***Beyləqan şəhərində Müdafiə Nazirliyi və Beyləqan Rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunan "Sən Vətənin sipəri, xalqımın qürurusan" adlı kütləvi hərbi şöhrət bayramı ordu ilə xalqın monolit birliyinin nümayişinə çevrilib.***



AZƏRTAC xəbər verir ki, tədbirdə aprel ayının əvvəllərində qoşunların təmas xəttində şücaət göstərmiş hərbi hissələrin nümayəndələri, eləcə də Beyləqan rayonundan olan hərbi qulluqçular, döyüşlərdə göstərdikləri qəhrəmanlıq və igidliyə görə yüksək fəxri ada layiq görülən hərbçilər, ictimaiyyət nümayəndələri, Qarabağ müharibəsi veteranları, şəhid ailələri, gənclər iştirak ediblər.

Müdafiə Nazirliyinin zabiti, polkovnik Abdulla Qurbani çıxış edərək, xalqla ordunun monolit birliyindən, aprelin əvvəllərində erməni işğalçılarının cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, Silahlı Qüvvələrimizin işğal altındakı torpaqlarımızı Ali Baş Komandanın əmri ilə azad etməyə hazır olduğunu bildirib.

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev tədbirdə çıxış edərək vurğulayıb ki, beyləqanlılar həmişə Azərbaycan Ordusuna dayaq olublar, Heydər Əliyev ideyalarına sadiqdirlər, Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə hər an respublikamızın ərazi bütövlüyü uğrunda savaşa atılmağa hazırdırlar.

Tədbirdə Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı, Beyləqan rayonunun incəsənət ustaları hərbi vətənpərvərlik mövzusunda mahnılar və rəqslər təqdim ediblər. xalq artisti Samir Cəfərovun ifasında Abdulla Qurbaninin sözlərinə bəstəkar Azad Zahidin yenicə yazdığı "Lələtəpə fatehləri" mahnısı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Beyləqanlılar tədbirə birbaşa ön cəbhədən, təmas xəttindən gələn zabit və əsgərləri hərarətlə qarşılayıblar. Vətən torpaqlarının müdafiəsində fərqlənən bir qrup hərbi qulluqçuya hədiyyələr verilib.





# Hərbi hissədə hərbi vətənpərvərlik tədbiri



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik tədbirlər planına əsasən, Şəmkirdəki hərbi hissədə rayonun təhsil müəssisələrinin şagirdlərinin iştirakı ilə vətənpərvərlik mövzusunda tədbir keçirilib.

Rayonun dörd orta təhsil müəssisəsinin şagird və müəllimlərinə hərbi hissənin yaranma tarixi, döyüş yolu, ərazidə yerləşən obyektlər barədə məlumat verilib.

Qonaqlar şəxsi heyətin məişət şəraiti, Silahlı Qüvvələrin təchizatında olan silah-sursat, mühəndis, rabitə cihazları və avadanlığı, səyyar təşviqat guşələri və mənəvi-psixoloji təminat vasitələri ilə yaxından tanış olublar. Hərbi hissənin ərazisindəki Heydər Əliyev Mərkəzini ziyarət edən qonaqlara ümummilli liderin həyat və fəaliyyəti barədə geniş məlumat verilib.



Şagirdlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müxtəlif vaxtlarda hərbi hissəyə səfərləri, Silahlı Qüvvələrdə keçirilən təlimləri əks etdirən filmlərə baxıblar.

Tədbirin sonunda qonaqlar əsgərlərlə birlikdə nahar ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Ordu və cəmiyyət*

# İşğal edilmiş torpaqların azad edilməsinin vaxtı çatıb

*Məlum aprel savaşında Silahlı Qüvvələrimizin hünər və rəşadəti ölkəmizin bütün ictimaiyyəti tərəfindən böyük coşqu ilə qarşılanıb. Müəllimlər, gənc nəslin nümayəndələri, ümumiyyətlə, cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlar Müdafiə Nazirliyinin rəhbərliyinə ünvanlanan çoxsaylı müraciətlərində doğma ordumuzun şanlı qələbəsinin yaratdığı yüksək əhval-ruhiyyəni bölüşür və daim Azərbaycan əsgərinə dəstək olacaqlarını bildirirlər.*

*Müdafiə naziri general-polkovnik Zakir Həsənova Bakıda fəaliyyət göstərən "Xabad Or-Avner" məktəbinin pedaqoji və şagird kollektivi tərəfindən də müraciət ünvanlanıb. Müraciəti təqdim edirik.*

**"Azərbaycan Ordusu"**

Hörmətli cənab nazir!

Vətənimiz üçün belə bir mühüm dövrdə biz, "Xabad Or-Avner" məktəbinin pedaqoji kollektivi və şagirdləri baş verən hadisələrdən kənarda qala bilmərik. Yaxşı bilirik ki, vətənpərvərlik öz ölkəmiz naminə çalışmaq, öz keçmişinə və bu gününə qayğıyla yanaşmaq deməkdir. Azərbaycan torpaqları uğrunda qorxmadan vuruşmuş döyüşçülərin hədsiz qəhrəmanlığı ilə qürur duyuruq.

Çoxəsrlik tarixə malik Azərbaycanın yəhudi icması özünü həmişə vahid Azərbaycan cəmiyyətinin bir hissəsi hesab edir. Azərbaycan xalqının ağrı-acısı hər birimizin qəlbini ağrıdıb. Yəhudilər də burada yaşayan digər xalqların nümayəndələri ilə çiyin-çiyinə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü naminə erməni qəsbkarlığına qarşı şücaətlə vuruşmuşlar. Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə yəhudi icmasının nümayəndələri də öz canlarından keçmişlər. Onların arasında Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov, Xanin və başqalarının xatirəsi qəlbimizdə əbədi yaşayacaq.

Əvvəlki dövrlərdə olduğu kimi, indi də Azərbaycanın yəhudi vətəndaşları tam və qəti qələbə üçün Vətənin bayrağı altında mübarizə aparmağa hazırdırlar.

Torpaqlarımızı azad etməyə qadir olan orduya dəstək məqsədilə biz məktəbimizdə mitinq keçirdik. Məktəbimizə gəlmiş döyüşən ordunun zabitlərini nəfəs çəkmədən, qəlbimizi dolduran iftixar hissilə dinlədik. Onlar qeyd etdilər ki, torpaqlarının 20 faizi işğal altında olan ölkəmizin gəncləri zəbt edilmiş ərazilərimizi azad etməyə həmişə hazır olmalıdır.

Biz qələbəyə inanırıq və düşünürük ki, işğal edilmiş torpaqların azad edilməsinin vaxtı çatıb.

**Y. LEZNİK, "Xabad Or-Avner" məktəbinin direktoru**

*Ovqat*

# Anam ol, heykəl ana!..



Dağ qürurun, əzəmətin, əyilməzliyin heykəlidi, bulaq duruluğun, saflığın, nərgiz-bənövşə gözəlliyin...

"Tikdim ki, izim qala." Biz də belə deyirik. Min illərlə belə deyiləcək. Qurub-yaratmaq fəzilətinin yaşarılığına inam var bu fikirdə: tikilən, yaradılan, yazılan nə varsa, tarixin cığırdaşına dönür. Möcüzəsiylə, heyrətiylə xalqın mədəniyyət tarixini yaşadan Tac-Mahal kimi, Möminəxatun türbəsi kimi, Şəkidəki Xan Sarayı kimi, Qız Qalası kimi, Qobustan qayaüstü rəsmləri kimi...

Heykəllər də belədi...

Heykəllərə heyrətlə, sevgilərlə baxırıq. Çox vaxt heykəltaraşın kimliyini bilməsək də, baxırıq, işığını gördüyümüz heykəlin müəllifini tanımaq istəyirik, tanıyırıq və bu yaradıcı insan könül mehmanımız olur...

Tarixi şəxsiyyətə heykəl təkcə adının əbədiləşdirilməsi üçün ucaldılmır, həm də onun zamanında deyə bilmədiklərinin sükut diliylə eşidilməsi üçün ucaldılır. Nə deyirsə, xalq üçün deyir, millət, dövlətçilik üçün deyir. Heykəllərin baxışının dediklərini hamı duyurmu?..

Səməd Vurğun ayaq saxlayanlarla könül söhbəti eləyir elə bil: "Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan!"...

Qılıncın da, sözün də Xətaisinin heykəli dövlətçiliklə sözü yaşatma istəyinin heykəlidi sanki. Biganələrə

Xətai, işin düşər,
Gəlib-gedişin düşər.
Dişləmə çiy loğmanı,
Yerinə dişin düşər, -

deyir, dövlətçilik naminə, xalq naminə, millət naminə deyir...

Bəhram Gurun heykəli fəzilətlərin, xeyrin şər üzərində qalibiyyətinin heykəlidi...

Hüseyn Cavidin heykəlinə baxırsan, onun sonsuzluğa dikilmiş baxışlarından oxuduqlarına inanırsan: "Kəssə hər kim tökülən qan izini, Qurtaran dahi odur yer üzünü!.."...

...İndi polkovnik-leytenant olan Eldar Sadıqov heykəltəraşlıq fakültəsinin tələbəsiydi. 1991-ci ildə, son kursda təklif edilən diplom işi könlünə yatmadı. Ürəyini göynədən, düşüncələrini dara çəkən, könül mülkünü sıxan bir mövzu üzərində işləmək istəyirdi. İstəyirdi ki, yaradacağı əsər tarixin günahlarını yaşada bilsin, yaşatsın, yaşada-yaşada "arşını əyilmiş dünyaya", dünyanın nazıyla oynayan tarixə görk olsun.

Erməniliyin əzablarını yaşayanların, doğma ocaqlarını tərk edənlərin ağrı-acılarını gördü, eşidirdi. Gördükləri, eşitdikləri könül qübarına dönmüşdü. Məmləkəti sıxıntılara salan bu ağrı-acı qaçqınlığıydı. Qəlbini gizildədən bu dərdi heykəlləşdirməyi qərara almışdı. Qaçqın ananın heykəlini yaradacaqdı. Bu heykəl ömrü qaçqınlığa tuş gələn anaların dərdini ümumiləşdirəcəkdi. Eşitdiklərindən, gördüklərindən düyünlənən barmaqları qəhərə dil verəcəkdi ki, dillənsin, dərdə can verəcəkdi ki, olanları birər-birər danışsın, kədəri dikəldəcəkdi ki, uzaqlardan da görünsün...

Eldar Sadıqovun "Qaçqın ana" heykəli bir ananın timsalında qəhərin heykəlidi, dərdin heykəlidi, sönən çırağın heykəlidi, qaralan ocağın heykəlidi, yanaqlarda közə dönən göz yaşının heykəlidi, həsrətin, nisgilin heykəlidi...

Ananın gözləri uzaqlarda, əlçatmazlıqda qalanlara sarı dikilib. O əlçatmazlığı ananın illərlə ətəklədiyi, qaladığı, istisində isindiyi doğma ocağıdı. O qalanlar ömrün əzəli gözəlliyiydi. O qalanların nağıllı-dastanlı gecələri vardı, dan üzünün mehi yerişinin əlindən yapışan gündüzü vardı, gözdoyduran, könül açan çəmənzarı vardı, çiçək-çiçək naxışı vardı, nərgizi-bənövşəsi vardı, Dədə palıdı vardı, axar suları, gur bulağı, qarlı dağı vardı...

Ananın ağuşuna sığınan körpə bunları dərk edə bilmir hələ. Qaçqınlığın nə olduğunu bilmir, dərdin nə olduğunu bilmir, qardaşının nə vaxtsa qayıdacağını düşünür...

O yerlərə dönəcəyinə ümidi var Heykəl ananın. O ümidi Ali Baş Komandanın əmri ilə sən gerçəkləşdirəcəksən, Azərbaycan əsgəri!..

Heykəl ananın baxışlarını bürüyən qəhər oğul itkisidi bəlkə? Bəlkə qaçaqaçda oğlunu ağ qarda, göy buzda erməni güllədi alıb əlindən? Oğul dağı çəkilib ananın sinəsinə...

...Köynəyindən keçir məni, heykəl ana! Oğlun olum, oğlun olum!..

**Rəşid HÜSEYNOV, "Azərbaycan Ordusu"**

# Naxçıvanda "Şahin"lərin birinciliyi keçirilib



*Aprelin 20-də Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Fövqəladə Hallar, Təhsil nazirliklərinin, həmçinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə "Şahin" hərbi idman oyununun muxtar respublika üzrə zona birinciliyi keçirilib.*

Azərbaycanın Dövlət himni səsləndirildikdən sonra yarışlara start verilib. Əsasnaməyə uyğun keçirilən yarışda məktəblilər bütün normativləri üzrə birinci yer uğrunda gərgin mübarizə aparıblar.

Yarışın nəticəsinə əsasən, Culfa rayonunun Saltaq kənd tam orta məktəbinin komandası birinci yerə, Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbinin komandası ikinci yerə, Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin komandası isə üçüncü yerə layiq görülüb.

Sonda qalib komandalar təşkilatçıların diplom, fəxri fərman və kubokları ilə mükafatlandırılıb. İlk iki yeri tutan komandalar mayda keçiriləcək respublika birinciliyinə vəsiqə qazanıblar.

Yarışdan sonra Muxtar Respublika Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayevlə söhbətləşdim. O bildirdi ki, "Şahin" hərbi idman oyununun keçirilməsində əsas məqsəd böyüməkdə olan nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına diqqəti artırmaq, şagirdləri hərbi idman oyunlarına cəlb etməklə onların ordu sıralarına hazırlanmasına kömək göstərilməsidir.



Saltaq kənd tam orta məktəbinin nümayəndələri bildirdilər ki, onların əsas məqsədi respublika birinciliyini əldə etməkdir.

Xatırladaq ki, bu məktəbin hərbi rəhbəri Adil Cabbarovun yetirmələri uzun illərdir hərbi idman oyunlarında uğurlar qazanırlar. Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsidir ki, hazırda Silahlı Qüvvələrimizin sıralarında bu məktəbin neçə-neçə məzunu xidmət edir.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

*Düşüncələr*

# Mən kiməm?!

Mən kiməm?!

Mən milli heysiyyat zərrələrindən biriyəm. Bu zərrələr məndən ayrıla bilmədiyinə görə, mən də onlardan ayrıla bilmirəm.

Mən, Vətən keşiyində dayanan, soyuqda-sazaqda, istidə-bürküdə, yağışda, dumanda-çəndə ürəyi Vətən sevgisilə alışıb yanan, gözünü qırpmadan ölümə gedən, uca məqamlara yüksələn əsgərəm! Mən şəhid əsgərəm, qazi əsgərəm. Vətən torpağıyam, Vətən daşıyam, Vətənin səngərdə bitən daşıyam!

Mən zabitəm! Əsgərlərimlə Vətən qalasını qoruyuram. Düşmən qumbarasına sinə açaraq, Vətən əmanətini qoruyan mənəm. Mübarizlər yetişdirən, düşmənə layiq olduğu yeri göstərən Fəridəm, Əhmədəm, Elnuram! Mən zabitəm!

Mən həkiməm! Əynimdə ağ xalat, xalqımın sağlamlığının, gələcəyinin keşiyində dururam. Ağ xalat kimi təmiz vicdanımı xalqıma xidmətlə qoruyuram!

Mən fəhləyəm! Halal zəhmətilə ölkənin işıqlı gələcəyini quran mənəm!

Mən övladam! Mən nəvəyəm! Dədələrin, babaların şərəfli davamçısıyam! Elinə,



adətinə, dininə bağlı övlad!

Mən hakiməm! Ədalətim ehtiyacı olanların işığıdı!

Mən müəlliməm! Yüz minlərlə şagirdlərin, yüz minlərlə əsgərlərin, yüz minlərlə zabitlərin... müəllimiyəm!

Mən Azərbaycanlıyam!

**Vasif RAMAZANOV,**
**Sumqayıt şəhəri**

## "Erməni hərbçisi yük avtomobilinin özlərinin basdırdığı minaya düşməsi nəticəsində həlak olub"

Qoşunların təmas xəttində əldə olunan atəşkəs rejiminin guya Azərbaycan tərəfindən Talış kəndi istiqamətində pozulması və nəticədə Marat Danielyan adlı erməni hərbçisinin güllə yarası alaraq ölməsi barədə Ermənistanın kütləvi informasiya vasitələrində yayılan xəbər tamamilə yalandır.

Bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq məlumat veriblər.

"Əslində, aprelin 21-də səhər saatlarında cəbhənin şimal istiqamətində hərəkət edən, erməni tərəfinə məxsus "Zil-131" markalı hərbi yük avtomobili özlərinin basdırdığı minaya düşüb. Partlayış nəticəsində bir erməni hərbçisi ölüb və xeyli sayda yaralanan var.

Hadisəni Azərbaycan tərəfinin üzərinə yıxmağa cəhd göstərən Ermənistan yaralılar haqqında da məlumatı ciddi-cəhdlə öz xalqından gizlətməklə belə dezinformasiyalar yayaraq hərbi rəhbərliyin uğursuzluğunu ört-basdır etməyə çalışır", - deyə nazirliyin məlumatında qeyd olunub.

# Xarici hərbi xronika

## ABŞ-ın nüvə konveyeri yeniləşəcək

Ağ Evdə ABŞ-ın milli təhlükəsizliyinin təmin edilməsi üzrə bir çox problemlər, ölkə vətəndaşlarını terror təhlükələrindən qorumaq və hərbi xərclər barədə məsələlər üzərində müzakirələr aparılır. Bu yaxınlarda ölkənin nüvə arsenalının möhkəmləndirilməsi məsələsinə də toxunulub. Bir sıra Amerika kütləvi informasiya vasitələri bunun yaxşı siqnal olduğunu qeyd ediblər. Bəzi mətbuat nümayəndələri hər il strateji hücum qüvvələrinin modernləşdirilməsinə və onların müasir silahlarla təchiz edilməsinə olan xərclərin artırılmasına diqqət yönəldiblər.

Son illər hökumət dəfələrlə Strateji Nüvə Qüvvələrinin modernləşdirilməsi təklifini irəli sürüb. Gələcəkdə Ağ Ev 12 ədəd sualtı nüvə qayığının, 100 ədəd strateji bombardmançının, 1100 ədəd qanadlı raketin, 400 ədəd qitələrarası ballistik raketin, həmçinin çoxlu sayda modernləşdirilmiş nüvə başlıqlarının silahlanmaya qəbul edilməsini planlaşdırıb.

## Avstraliyada ağır bombardmançılara üstünlük verilir

Amerika Birləşmiş Ştatları Asiyanın Sakit okean regionunda Çinə qarşı mübarizə məqsədilə Avstraliyada ağır bombardmançılarını yerləşdirmək istəyir. Bu haqda ABS News agentliyi məlumat verib. Sakit okean regionundakı ABŞ HHQ-nin komandanı Lori Robinsonun məlumatına görə, hazırda Amerika B-1 bombardmançılarının və yanacaqdoldurma təyyarələrinin müvəqqəti olaraq Avstraliyanın şimal ərazisində - Nindal və Darvində yerləşdirilməsi barədə yüksək səviyyədə danışıqlar aparılır. Robinsonun sözlərinə görə, ABŞ elə bir anı əldən buraxa bilər ki, Çin tez bir vaxtda Cənubi-Çin dənizində öz hərbi infrastrukturunu yerləşdirə bilər. Bu təhlükəni qabaqlamaq üçün regionda dəniz və hava qüvvələrinin yerləşdirilməsi çox vacibdir. Hazırda mübahisəli Cənub-Çin dənizi akvatoriyasında gərginlik davam etməkdədir.

## S-300 zenit raket sistemi

"RİA Xəbərlər"in versiyasına görə, S-300 zenit-raket kompleksi müxtəlif yüksəkliklərdə yerləşən hədəfləri məhv etməyə qadirdir. Birinci çoxkanallı sistem 6 hədəfi müşayiət etməklə ona 12 raket zərbəsi endirə bilər. Onun əsas xüsusiyyətlərindən biri mobilliyidir. Raket sistemi 5 dəqiqə ərzində səyyar vəziyyətindən döyüş vəziyyətinə keçə bilir. Əsasən Şərqi Avropa və Asiya ölkələrinə ixrac olunur. Ekspertlər bu silahı HHM-in ən döyüş qabiliyyətli sistemi adlandırıblar. Qeyri-rəsmi məlumata görə, 2010-cu ildə Rusiyada cəmi 2100 ədəd belə kompleks olub. Onun təkmilləşdirilməsi nəticəsində S-400 zenit-raket kompleksi yaradılıb və silahlanmaya qəbul edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 227
Nüsxə 4700